# Kitabxanamızı zənginləşdirmək üçün

Kitabxanalarımızda saya-hesaba gəlməyən nə qədər kitab var. İllərdən bəri onlardan bəhrələnmiş, təhsilimizi artırmış, dünyagörüşümüzü formalaşdırmışıq. Odur ki, hər birimiz bu günümüz üçün məhz kitablara borcluyuq.

Latın qrafikasına keçildiyindən indi kitabxanalarımız yeni əlifba əsasında nəşr olunmuş kitablarla zənginləşdirilmək ehtiyacı duyur. Özü də bu işi çox sürətlə həyata keçirmək gərəkdir. Fəqət kitab üçün maliyyə vəsaiti cüzi miqdarda ayrıldığından kitabxanaların latın qrafikalı ədəbiyyatla zənginləşdirilməsi həddən ziyadə zəif aparılır.

Bütün bunları nəzərə alaraq həmyerlilərimiz nəcib bir məsələni reallaşdırmağı qərarlaşdırıblar. Onlar öz vəsaitləri hesabına nəşr etdirdikləri kitablarını və digər ədəbiyyatları kitabxanamıza hədiyyə edirlər. Onlardan Bakı Biznes Universitetinin professoru Mirağa Cəfərquliyevin, tarix elmləri namizədi Sevil Kərimovanın, şair İslam Qəriblinin, Nəriman Ağazadənin, İsaq Əmənullayevin, Hamlet Qocanın, Ağacəfər Həsənlinin, Hacıməmməd Quluzadənin, Nəsib Nikbinin, Eldar İsgəndərzadənin, Balayar Sadiqin, Şəmistan Göyçəlinin, Daşdəmir Paşayevin, İdris Şükürlünün və başqalarının adlarını çəkmək, onlara dərin minnətdarlığımı bildirmək istəyirəm.

İnanıram ki, bu gözəl ənənə gələcəkdə də davam etdiriləcək, bu təşəbbüsə bütün ziyalılarımız qoşulacaq və nəticədə kitab fondumuzun zənginləşdirilməsi istiqamətində mühüm addımlar atılacaqdır.

**Ağaş Mirzəzadə,**
**Lerik rayonundakı Azərbaycan kənd kitabxanasının müdiri**

16088
M.F.Axundov adına Azərbaycan Milli